# Böyük Qələbəmizə aparan yolun başlanğıcı

**Sentyabrın 27-si Anım Günüdür. Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən təsis edilən Anım Günü Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarından keçmiş şəhidlərimizə dərin ehtiramın ifadəsidir. Anım Günündə respublikamızın bütün şəhər və rayonlarında, o cümlədən azad edilmiş ərazilərimizdə şəhidlərimizin xatirəsi qürurla yad edilir. 2020-ci il sentyabrın 27-də başlamış və 44 gün davam etmiş Vətən müharibəsi bizim şanlı tariximizdir. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə göstərdi, bir yumruq kimi birləşərək əsl həmrəylik nümayiş etdirdi. Məhz bu həmrəylik nəticəsində düşmənə sarsıdıcı zərbələr vuruldu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, dəmir iradəsi, uzaqgörən strategiyası, uğurlu xarici-daxili siyasəti nəticəsində xalqımız tarixinin ən möhtəşəm Qələbəsini qazandı.**

Vətən müharibəsində 3 minə yaxın qəhrəman övladı şəhidlik zirvəsinə yüksəldi, minlərlə vətəndaşımız qazi oldu, sağlamlığını itirdi. Azərbaycan Ordusunun əks-hücumları qarşısında aciz qalan düşmən günahsız mülki insanları hədəfə alaraq çoxsaylı müharibə cinayətləri törətdi. Azərbaycanın ikinci böyük şəhəri, çoxsaylı tarixi və mədəni abidələri olan qədim Gəncə, ərazilərində strateji obyektlər yerləşən Mingəçevir və Yevlax şəhərləri, Beyləqan, Bərdə, Tərtər, Qəbələ, Goranboy, Ağcabədi, Abşeron, Xızı və digər rayonlarımız ballistik raketlər və digər ağır artilleriya qurğularından atəşə tutuldu. Ümumilikdə, Ermənistanın hərbi təcavüzü nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla 93 mülki şəxs həlak oldu, 454 mülki vətəndaş yaralandı. Lakin təcavüzkar Ermənistan xalqımızın qələbə əzmini sarsıda bilmədi. Çox qısa zamanda "Dəmir yumruq" əməliyyatı ilə torpaqlarımız işğaldan azad edildi, ölkəmizin ərazi bütövlüyü təmin olundu. 30 il işğal altında qalmış kəndlər, şəhərlər bir-birinin ardınca erməni işğalçılarından təmizləndi.

Azərbaycan Ordusunun həyata keçirdiyi unikal əməliyyatla noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olundu. Prezident İlham Əliyev Şuşanın işğaldan azad edilməsi xəbərini Şəhidlər Xiyabanından Azərbaycan xalqına müraciətində bəyan etdi. "Şuşasız bizim işimiz yarımçıq olar", - deyən Müzəffər Ali Baş Komandan müasir müstəqil dövlətimizin banisi ümummilli lider Heydər Əliyevin ən ümdə vəsiyyətini şərəflə yerinə yetirdi. Şuşanın işğaldan azad edilməsi, bu əzəmətli məkana üçrəngli bayrağımızın sancılması Vətən müharibəsində dönüş nöqtəsi oldu.

Ermənistanın hərbi təxribatından sonra Azərbaycan Ordusunun 44 gün davam edən əks-hücum əməliyyatı noyabrın 10-da tarixi qələbəmizlə başa çatdı. Həmin gün Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən imzalanan birgə bəyanatla Silahlı Qüvvələrimizin hərbi cəbhədəki möhtəşəm qələbəsi diplomatik sahədə də rəsmiləşdirildi. Ermənistan kapitulyasiya sənədinə imza atmağa məcbur qaldı. Beləliklə, xalqımızın 30 illik yurd həsrətinə son qoyuldu, ədalət bərpa edildi. Eyni zamanda, Prezident, Ali Baş Komandan İlham Əliyev qalib sərkərdə, Azərbaycan Silahlı Qüvvələri güclü ordu, xalqımız isə böyük, məğrur, yenilməz olduğunu bir daha təsdiqlədi. Ermənistanın kapitulyasiya aktı olan 10 noyabr Bəyanatı ilə Kəlbəcər, Laçın və Ağdam rayonları qan tökülmədən Azərbaycana qaytarıldı. Birinci və İkinci Qarabağ müharibələrində şəhid olan Vətən oğullarının qisası döyüş meydanında alındı. Azərbaycan dünyaya səs salan "Dəmir yumruq" əməliyyatı nəticəsində Ermənistan diz çökdü. Dünya kimin haqlı, kimin haqsız olduğunu, beynəlxalq hüququn zamana və məkana görə tətbiqinin sonda hansı nəticələrə gətirib çıxardığını gördü. Vətən müharibəsinin ədalətin, qürurun, milli ləyaqətin, Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi olduğu bütün dünyaya bəyan edildi.

27 sentyabr Böyük Qələbəmizə aparan yolun başlanğıcı oldu. İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsinə dövlətimizin başçısının də dəfələrlə vurğuladığı kimi, bizim həmrəyliyimiz önəmli rol oynadı. Başqa sözlə, Xalq-Prezident-Ordu vəhdəti ərazi bütövlüyümüzün bərpasında, torpaqlarımızın işğaldan azad edilməsində mühüm əhəmiyyət daşıdı. Şübhəsiz, bu şanlı zəfərdə qardaş Türkiyə də daim Azərbaycanın yanında oldu. Zəfərdən sonra ölkə rəhbəri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın 15 İyun - Milli Qurtuluş Günündə Şuşa Bəyannaməsini imzalamaları iki qüdrətli ölkənin münasibətlərini iqtisadi, siyasi və hərbi baxımdan ən yüksək səviyyəyə çatdırdı.

Bir məqamı da xüsusi qeyd etmək lazımdır ki, müharibənin davam etdiyi günlərdə dövlət başçısı xarici ölkələrin nüfuzlu kütləvi informasiya vasitələrinə, telekanallarına verdiyi müsahibələrlə respublikamızın haqq səsini dünya ictimaiyyətinə tutarlı arqumentlərlə çatdırdı. Həmçinin Azərbaycanın beynəlxalq hüququn tələblərinə uyğun öz torpaqlarında savaş apardığını sübut etməklə ermənipərəst xarici dairələrin döyüşlərin gedişinə müdaxilələrinin qarşısını böyük məharətlə aldı.

Azərbaycan torpaqlarını otuz il işğal altında saxlayan nankor qonşumuz Ermənistan özünün təcavüzkar siyasəti üzündən bütün regional layihələrdən təcrid olunub. Hazırda bu ölkədə siyasi, sosial və iqtisadi böhran fəlakət həddinə çatıb və zaman işğalçıya heç bir uğurlu perspektiv vəd etmir. Revanşist çıxışlarından əl çəkməyən erməni "başbilənlər"i günün reallıqlarını anlamır. Postmüharibə mərhələsində Azərbaycanın regional inkişafa, bölgədə əməkdaşlığın dərinləşdirilməsinə xidmət edən təşəbbüs və təkliflərini görməzdən gəlirlər. Xüsusən, son günlər intensiv təxribatlar törədir, Azərbaycanla aparılan danışıqlar prosesini, sülh müzakirələrini pozmağa cəhd edirlər. Lakin ermənilər "Dəmir yumruğ"u heç vaxt unutmamalıdır. İşğaldan azad edilmiş Hadrut qəsəbəsində ucaldılan "Dəmir yumruq" abidəsi xalqımızın, dövlətimizin, rəhbərimizin iradə və əzminin nümayişi, düşmənə əsl göz dağı, dərsdir. Düşmən hər zaman o "Dəmir yumruğ"u başının üzərində hiss etməli və torpaqlarımıza göz dikməyi xəyalına belə gətirməməlidir.

Zamanın Azərbaycanın xeyrinə işləməsi aşkar faktdır. Hazırda işğaldan azad etdiyimiz bölgələrdə genişmiqyaslı quruculuq işləri aparılır. Qarabağda 11 müxtəlif istiqamətdə avtomobil yolları çəkilir ki, bunların da ümumi uzunluğu 700 kilometrdən çoxdur. Bölgədə tikilən hava limanları, çəkilən dəmir yolları vasitəsilə daşımalar həm əhalinin Qarabağa qayıdışına, həm də orada icra olunan iqtisadi layihələrin səmərəliliyinin artmasına xidmət edəcək. Şuşada, Ağdamda, Füzulidə və Qarabağın digər rayonlarında həyata keçirilən bərpa-quruculuq tədbirləri hər kəsdə tükənməz qürur və məmnunluq duyğusu yaradır. İşlər sırf plana uyğun şəkildə, ciddi koordinativ formada aparılır. Ötən hər gün məcburi köçkünlərimizin Qarabağa kütləvi qayıdışını daha da yaxınlaşdırır. Qarabağın dirçəldilərək cənnətə çevrilməsi və onun potensialının ölkə iqtisadiyyatına yönəldilməsi prioritet məsələ kimi qarşıya qoyulub. Qarabağda aparılan bərpa-quruculuq işləri ilə paralel Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın işğaldan azad olunmuş ərazilərə mütəmadi səfərləri də doğma yurda qayıdışın təntənəsidir.



İşğal altında olan torpaqlarımız yüzlərlə qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına azad edilib. Onlarla mülki vətəndaşımız xəyanətkar düşmənin döyüş cəbhələrindən uzaqlarda yerləşən ərazilərə raket zərbələrindən həlak olub. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsinə daim yüksək ehtiram göstərir. Ölkə başçısı şəhidlərin əziz xatirəsinin əbədiləşdirilməsini, eləcə də qazilərimizin müalicəsini və sağlamlıqlarının bərpasını diqqət mərkəzində saxlayır. Dövlət başçısı Vətən müharibəsinin başa çatması ilə bağlı xalqa müraciətində bu barədə belə deyib: **"Birinci Qarabağ və İkinci Qarabağ müharibələrinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaq. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində biz torpaqlarımıza qayıdırıq. Allah bütün yaralı hərbçilərimizə şəfa versin, onlar tezliklə sağalıb normal həyata dönsünlər, onların sağalması üçün də əlimizdən gələni edirik və edəcəyik. Hətta ən ağır vəziyyətdə olan yaralı əsgərimiz, zabitimiz bilməlidir, əlimizdən gələni edəcəyik ki, onu normal həyata qaytaraq. Biz bu Qələbəyə görə onlara borcluyuq".**

Birinci vitse-prezident Mehriban xanım Əliyeva da şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi, şəhid ailələrinin, qazilərin hərtərəfli qayğı ilə əhatə olunmasına xüsusi diqqət yetirir. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirir. Mehriban xanım Əliyeva şəhidlərimizə hörmət və ehtiramını belə ifadə edib: **"Azərbaycan xalqının igid oğulları Zəfər naminə, Azərbaycanın gələcəyi naminə canlarından keçib. Onların hər biri əsl qəhrəman, rəşadət və qorxmazlıq nümunəsidir... Şəhidlərimizin qanı nahaq yerə tökülmədi - biz tarixi ədaləti bərpa etdik, müqəddəs Qələbə qazandıq. Bu Qələbə xalqımızın tarixinə əbədi həkk olundu. Hər birimiz bu Zəfərin nəyin bahasına qazanıldığını yadda saxlamağa borcluyuq. Biz Vətən müharibəsi şəhidlərini heç vaxt unutmayacağıq. Onlar bizim qəlbimizdə daim yaşayacaq".**

Xalqımız və dövlətimiz mübariz oğul və qızlarımızın şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiramla yanaşır, xatirəsini uca tutur. Şəhidlərimizi anmaq, qazilərimizə diqqət və qayğı göstərmək şanlı bayrağımızı Qarabağda dalğalandırmış, canını Vətən yolunda fəda etmiş qəhrəman igidlərimizin ölməz ruhuna, əsgər və zabitlərimizə vəfa borcumuzdur. Məhz 27 sentyabr - Anım Günü bizə, hər bir Azərbaycan vətəndaşına şəhidlərimizi xatırladacaq, onların xatirəsi daim qəlbimizdə yaşayacaqdır.

**Elmar ƏLİYEV,**
**Bakı şəhəri 14 saylı notariat ofisinin notariusu.**

# 27 Sentyabr

## Qürur və ehtiramla xatırlanan gün

**Azərbaycan 30 ilə yaxın müddətdə ərazisinin 20 faizini işğal edən Ermənistanla danışıqlar apararaq Ermənistan-Azərbaycan münaqişəsini sülh yolu ilə nizamlamağa çalışmışdır. Aparılan danışıqlar heç bir nəticə verməmiş, əksinə, aydın şəkildə müşahidə edilmişdir ki, Ermənistan tərəfi, sadəcə olaraq, vaxt udmaq, status-kvonu möhkəmləndirmək, əbədi etmək istəyir. Azərbaycan dövləti isə işğalla barışa bilməzdi və barışmadı, ərazi bütövlüyünü bərpa etmək üçün sarsılmaz əzm göstərdi.**

2020-ci il sentyabrın 27-də Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüquq normalarını kobud surətdə pozaraq, müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə bir neçə istiqamətdən Azərbaycan Respublikasının yaşayış məntəqələrini və hərbi mövqelərini atəşə tutmaqla hərbi təxribatlar törətmiş, Azərbaycan Respublikasının milli təhlükəsizliyinə qarşı real və potensial hərbi təhdidlərin qarşısının alınması və zərərsizləşdirilməsi üçün Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən əks-hücum əməliyyatlarına başlanmışdır. Ermənistan Respublikasının silahlı qüvvələrinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi Azərbaycan Respublikasına qarşı real silahlı hücum təhlükəsi yaratdığı üçün ölkənin, əhalinin və ərazinin, eləcə də Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin müdafiəyə hazır vəziyyətə gətirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 27 sentyabr 2020-ci il tarixli Fərmanı ilə 2020-ci il 28 sentyabr saat 00:00-dan Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan edilmiş, 28 sentyabr 2020-ci il tarixli Sərəncam ilə isə Azərbaycan Respublikasında qismən səfərbərlik elan olunmuş, hərbi əməliyyatlara hazırlıq və onların keçirilməsinə dair qərarlar qəbul edilmişdir. Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirmişdir. Azərbaycan Ordusunun zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl ataraq, günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törətmişdir. 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etmişdir. Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə noyabrın 8-də Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynamış, bununla da Ermənistan öz məğlubiyyətini etiraf etmişdir. 2020-ci il noyabrın 10-da imzalanan Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin bəyanatı ilə müharibə Azərbaycanın qələbəsi ilə nəticələnmişdir. Ermənistan kapitulyasiya olunaraq Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur olmuşdur.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərin azad edilməsi uğrunda aparılan döyüşlərdə əsl qəhrəmanlıq nümunəsi, misilsiz şücaət və rəşadət göstərmişlər. Xalqımızın bir sıra igid övladları işğalçı düşmənə qarşı həyata keçirilən əməliyyatlar zamanı şəhid olmuş, sağlamlığını itirmişdir. Qeyd edək ki, 44 günlük Vətən müharibəsi zamanı 3000-ə yaxın şəhid olmuş, 7 nəfər itkin düşmüş, Ermənistanın dinc əhaliyə qarşı cinayətləri nəticəsində həlak olan 94 mülki şəxsə şəhid statusu verilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 3 dekabr 2020-ci il tarixli Sərəncamı əsasında Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyi yaradılmışdır. Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlarımıza və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq 2021-ci il sentyabrın 27-də - Anım Günündə Bakı şəhərində yürüş təşkil edilmişdir. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, gənc kursantlar və hərbçilər Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan igidlərimiz, itkin düşən hərbçilərimiz və Ermənistan dövləti tərəfindən törədilən insanlıq əleyhinə və müharibə cinayətləri nəticəsində qətlə yetirilən mülki əhalimizin hər birinin fotolarından ibarət plakatlarla yürüş edərək xalqın birliyinin daimi və sarsılmaz olduğunu, Vətənə sevgi, şəhidlərimizə ehtiramın əbədiliyini bir daha nümayiş etdirmişdilər.

Hazırda Azərbaycan dövləti yerləşdiyi regionda yaratdığı yeni geostrateji və geosiyasi üstünlüklərdən faydalı şəkildə bəhrələnərək milli və dövlət maraqlarına cavab verən beynəlxalq hərbi əməkdaşlığı uğurla davam etdirir. Dünyanın hərbi analitik mərkəzləri Azərbaycan Silahlı Qüvvələrinin 44 günlük müharibədə qazandığı qələbəni təhlil edir, bir çox dövlətlərin müdafiə qurumları ordumuzun müharibədə qazandığı döyüş təcrübəsini öyrənir, hərbi taktikasından bəhrələnir. Cənubi Qafqaz kimi mürəkkəb geosiyasi regionda və müxtəlif dövlətlərin maraqlarının kəsişmə məkanında yerləşən Azərbaycan beynəlxalq hərbi əlaqələrini xarici dövlətlərin hərbi qurumları və beynəlxalq təşkilatlarla qarşılıqlı maraqlar çərçivəsində reallaşdırır. Beynəlxalq hərbi əməkdaşlığın məqsəd və istiqamətləri Azərbaycan Respublikasının milli maraqlarına uyğun olaraq müəyyən olunur.

2022-ci il sentyabrın 13-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Kəlbəcər, Laçın, Daşkəsən və Zəngilan rayonları istiqamətində törətdiyi genişmiqyaslı təxribatlar bir daha bütün dünyaya göstərir ki, mənfur düşmən öz revanşist niyyətlərindən əl çəkmir. Ermənistan tərəfinin Azərbaycana qarşı növbəti təcavüzü beynəlxalq hüququn fundamental norma və prinsiplərinin, habelə Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında imzalanmış üçtərəfli bəyanatların müddəalarının və Azərbaycanla Ermənistan arasında əldə edilmiş razılıqların kobud şəkildə pozulmasıdır. Ermənistanın bu addımları aparılan normallaşma və sülh prosesinə tamamilə ziddir. Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərində genişmiqyaslı bərpa və quruculuq işləri apardığı halda, Ermənistan təcavüzə yol verməklə bu prosesə hər vəchlə mane olduğunu növbəti dəfə göstərmiş oldu.

Bu gün işğalçı Ermənistan Azərbaycana qarşı, nəinki savaş meydanlarında, informasiya məkanında da çirkin mübarizə aparır. Müasir dövrdə internet həm də savaş meydanıdır və hərbi əməliyyatlardan fərqli olaraq, bu müharibədə heç vaxt atəşkəs elan edilmir. Bu gün yeni nəsil müharibələrində həlledici rol təkcə çox sayda yerüstü qüvvə və nüvə silahına deyil, həm də, xüsusilə sosial şəbəkələrdə yayılan informasiya silahlarına verilir. Sosial şəbəkələrin inkişafı informasiyanın, demək olar ki, dərhal yayılmasına imkan verir və hadisələrin baş verdiyi ərazidən xüsusi avadanlıq olmadan da canlı reportajlar yayımlamaq imkanı yaradır.

Bir sözlə, müasir dünyada istənilən hərbi əməliyyatın uğurlu olması yalnız texniki təchizatdan deyil, həm də bilavasitə hərbi əməliyyatları müşayiət edən düşünülmüş və savadlı şəkildə qurulmuş informasiya kampaniyasından da asılıdır. Buna görə də müasir müharibələrin informasiya komponenti texniki tərəflə eyni səviyyədə tutulur. Yadda saxlamaq lazımdır ki, informasiya üstünlüyü müasir müharibələrdə, eləcə də informasiya müharibəsində qələbənin mühüm şərtlərindən biri sayılır. Odur ki, qeyd edilənləri nəzərə alaraq Ermənistan kimi mənfur və çirkin əməllər sahibi olan ölkə ilə müharibədə hamımız ehtiyatlı və sayıq olmalı, ancaq rəsmi məlumatlara istinad etməliyik.

Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı törətdiyi müharibə cinayətləri ilə bağlı məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün Ədliyyə Nazirliyi tərəfindən bir çox dövlətlərin ədliyyə nazirlərinə, çoxsaylı nüfuzlu beynəlxalq təşkilatlarına müraciətlər ünvanlanmışdır. Müraciətlərdə bir milyona yaxın insanın öz dədə-baba yurdundan didərgin salındığı, erməni terrorçularının törətdiyi qeyri-insani əməllər, xüsusilə Ermənistanın beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən Cenevrə Konvensiyasının müddəalarını kobudcasına pozması vurğulanmışdır. Həmçinin Azərbaycan həqiqətlərinin təbliği üçün Ədliyyə Nazirliyinin saytında üç dildə fəaliyyət göstərən "Qarabağ Azərbaycandır!" elektron platforması yaradılmışdır.

Ədliyyə Nazirliyində və struktur qurumlarda anım tədbirləri keçirilmiş, nazirliyin rəhbərliyi və kollektivi tərəfindən II Fəxri Xiyabanda Vətən müharibəsi qəhrəmanlarının, o cümlədən şəhid ədliyyə işçisi Ruhin Xəlilovun məzarı ziyarət olunaraq əklillər qoyulmuş, onların əziz xatirələri ehtiramla anılmışdır. Müharibə başlanan andan ədliyyə və məhkəmə işçiləri də döyüşlərdə könüllü iştirak etmiş, fədakarlıq göstərmiş, ölkə Prezidenti tərəfindən 100-dən çox medallarla təltif olunmuşdur. Həmçinin ədliyyə işçiləri ordumuzla həmrəylik nümayiş etdirərək, hərbçilərimizə, yaralananlara və şəhid ailələrinə ilk gündən öz dəstəyini əsirgəməmiş, Azərbaycan Ordusuna Yardım Fonduna, "YAŞAT" və Qarabağ Dirçəliş fondlarına könüllü vəsaitlər köçürmüşlər. Eyni zamanda postkonflikt dövründə Vətən müharibəsi iştirakçılarının, onların və şəhidlərimizin ailə üzvlərinin müraciətlərinə xüsusi həssaslıqla yanaşılaraq qaldırılan məsələlərin həlli üzrə zəruri tədbirlər görülmüş, ötən müddət ərzində onlarla belə şəxslər ədliyyə orqanlarında müvafiq işlə təmin edilmişdir.

Bələdiyyələrin fəaliyyətinin təşkil edilməsinə kömək edilməsi və onlara metodoloji yardım göstərilməsi məqsədilə Bələdiyyələrlə iş mərkəzi tərəfindən "Qarabağla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində bələdiyyələrin fəal iştirakı barədə", "Şəhid ailələrinə və müharibə əlillərinə bələdiyyələr tərəfindən göstərilən diqqət və qayğının daha da artırılması barədə" metodik vəsaitlər hazırlanaraq bələdiyyələrə göndərilmiş, onlara bu mühüm sahələrə diqqətin artırılması, eyni zamanda şəhid ailə üzvlərinin müraciətlərinə daha həssas yanaşılması bir daha tövsiyə olunmuşdur.

**Laləzar ƏLİZADƏ,**
**Ədliyyə Nazirliyi Bələdiyyələrlə iş mərkəzinin məsləhətçisi, II dərəcəli ədliyyə qulluqçusu.**